# Tofiq Abdinlə

## Kitab rəfi önündə söhbət

**İş otağımda bir kitab rəfi var. mənə bağışlanan kitabları öncə orda yerləşdirirəm. Sonra da iki bir, üç bir daşıyıb aparıram gecəqonduma. Açığını deyim ki, az qala hər gün təzə kitağblar gedirəm evimə. Son vaxtlar açıq-aşkar hiss edirəm ki, evdə bu hərəkətim çox da məmnunluqla qarşılanmır. Onları da qınamıram. Çünki üç kitabı rəfimdə artıq yer yoxdu. Axtardığım kitabı tapmaq üçün bəzən nə qədər kitabları ələk-vələk etməliyəm. Kitab rəfimdən əldavə yazı stolumun üstündə, çarpayının altında, bir sözlə ağla gələn hər yerdə kitablar, jurnallar qalaq-qalaq yığılıb. Hərdən evdəkilər mənə eşitdirirlər ki, sənin kitablarının ucbatından bu otağa süpürgə çəkmək olmur... Mən onları anlayıram. Adətən evin xanımları, qızları səliqəni xoşlayır. Mən isə...**

Mən kitabsevənlər cəmiyyətinin üzvü oolmasam da, kitaba bağlı adamam. Bax, belə bir durumda hər gün evə kitab aparmağın nə demək olduğunu yəqin ki, siz artıq anladınız. Elə bu anlayışınıza saygı ilə əlimdəki bir kitabdan danışmaq istəiyrəm. Bu kitabın müəllifi bizi tərk edib, Tanrı dərgahındadı. Amma sözü, xatirələri özünəməxsus həyat tərzi, bir də onun sözün bütöv mənasında qeyri-adi canıyananlığı heç yadımdan çıxmır, unuda bilmirəm. Demək olar ki, "Ədalət"in redksiyasında ən çox xatırlanan söz adamlarının sırasında Tofiq Abödin ön cərgədə djayanır. Məncxə bunun özü də bir xoşbəxtlikdi - özün köç edəsən, sözün və ruhun göz önündə ola, doçst yaddaşında yaşaya!.."

Bəli, son günlər onun barəsində özüm də bilmirəm nədənsə daha çox düşünürəm. Və kitab rəfimin qarşısında dayananda qeyri-adi bir formada əlim onun kitablarına tərəf uzanır. Götürürəm, yazdığı aftoqrafı oxuyuram, sonra şeirlərindən biri və yaxud da ikisini içimdə, özüm eşidəcəyim bir səslə oxuyub sonra kitabı qaytarıb yenidən öz yerinə qoyuram. Görünür, bu hansısa bir hissin, duyğunun ismarıcıdı. Mən onu bu gün qəbul etdim və o ismarıcı gecə gördüyüm yuxunun ovqatı ilə birləşdirib anladım ki, Tofiq Abdin oxuyub yerinə qoyduğum kitabının vərəqlənən səhifələrinin səsini eşidib diksinib. Bax, mən də bu ismarıcı alan kimi o kitabı bir daha vərəqləyə-vərəqləyə istədim ki, bu dəfə təkcə kitabının vərəqlərinin səsi deyil, elə mənim də səsim onun ruhunun qapısını döysün...

**Sönəndə göylərin son ulduzları**
**bəlkə də, bəlkə də**
**qayıtdın yenə,**
**Mən sənə düşmənəm,**
**ona görə ki,**
**lap elə sənin tək neçə tanışı**
**yenidən, yenidən tanıtdın mənə.**



**Mən buna yanıram, bu yanıram,**
**Bir daha mən səni bağışlamıram!**

Nədənsə Tofiq Abdinin "Səni bağışlamıram" şeiri kitabı açan kimi gözümə ilk sataşan nümunə oldu. Mən şeirin yalnız son bəndini sizə təqdim etdim. Çünki bu şeirdə Tofiq Abdin qəhrəmanının bütün hallarını bağışladığını böyük ürəklə ifadə etdiyi halda, sonda bağışlamadığı məqamı da qabartmağı unutmur. Yəni vurğulayır ki, hər bir halını bağışladığı ona sən demə hamını yenidən tanıdıb, yenidən kimin kim olduğunu ona xatırladım. Şair də məhz bu xatırlatmaya, bu tanıtmaya görə qəhrəmanını bağışladı. Düşünə bilərsiniz ki, burda faciəvi nə var ki? Amma yox. Bir anlıq düşünsəniz görərsiniz ki, illərlə tanıdığını yenidən tanımaq, yəni onun dərinlikdə, arxa planda olan qatlarını görmək, göründüyü kimi olmadığını anlamaq və buna sakit bir tərzdə baxmaq mümkün deyil. Tofiq Abdin də məhz olduğu kimi görünməyənləri yenidən görmək istəmədiyi üçün qəhrəmanını bağışlamır və üstəlik bu həm də qəhrəmanını özünün də olduğu kimi görünmədiyini vurğulamaq, ifadə etmək deməkdi.

**Yaza bilmirəm məhəbbətimdən.**
**Niyə?**
**Qəşəng qız, niyə?**
**Olmaya min cür**
**Qayğı öldürdü məhəbbətimi?**
**Yoxsa anam**
**Məhəbbətsiz doğdu məni?**
**Yaman kimsəsizlik çökdü məhəbbətə.**
**Bəlkə öldürmüşük**
**məhəbbət hissini?**
**Kim nə deyir desin**
**bizə çatdıra bilmədilər**
**məhəbbətin səsini.**
**Susuzluqdan çatlamış**
**dodaqlara bənzəyir gözlərimiz**
**məhəbbətsiz.**
**Məhəbbəti yaşayır ancaq nəğmələrimiz.**

Bu qəribə şeirdə bir neçə məqam var. Bu məqamın mənim üçün ən birincisi şairin sərt bir şəkildə vurğuladığı məhəbbətin yalnız nəğmələrdə yaşamasıdı. Yəni sevginin, hisslərin, duyğuların gerçəklikdən sözə, nəğməyə köçməsidi. Əslində bu, o böyük hissin adiləşməsi, dəyərdən düşməsi anlamını ortaya qoyur. Və hətta böyük Nizaminin böyük Bülbülün ifasında hər birimizin qəlbinə yol açan "Sənsiz"i belə bugünün gerçək məhəbbətini bir növü kölgələyir, onu arxa plana atır. Çünki o gerçək məhəbbət "Sənsiz"də olan yanğını əks etdirmir, göstərmir. Bax, şair də buna toxunur, buna istinad edir və vurğulayır ki, "yaza bilmirəm məhəbbətimdən". Təbii ki, şeir özü isə bütövlükdə şairin oyuncağa çevrilən aşağılanan, yalnız sözdə, nəğmədə yaşayan məhəbbətə acımasıdı, onu diriltmək istədiyidi.

Bəli, Tofiq Abdin əlimdə olan kitabındakı bir qoşmasında yazır:

**Çox Tofiqlər qoşmaları düz yazıb,**
**Səksən yazıb, doxsan yazıb, yüz yazıb.**
**Tofiq Abdin qoşmaları az yazıb**
**Bağışla gəl, gül, toxunma könlümə!**

Bu qoşmanın da məramı, mahiyyəti əslində yenə hissələrdi, duyğulardı və bir də bu hisslərin, bu duyğuların yuvası olan ürəyə, könülə edilən həmlələrdi. Mən Tofiq Abdinin poeziya dünyasında ən çox bir detallar qarşılaşıram. O da şairin gördüyü ilə yaşadığının qovuşma nöqtəsidi. Elə bil Tofiq Abdin şeiri yazmır. Sadəcə gördüyü, qarşılaşdığı məqamla yaşadığı məqamı bir-biriylə qarşı gətirir, üzləşdirir. Sonra onları ürəyinin süzgəcindən keçrir. Və o süzgəcdən keçən hər nədisə, sonda şeirə çevrilir və Tofiq Abdin də onu oxucuya çatdırır. Məsələn:

**Unuduram bircə-bircə**
**olanları.**
**Heç özüm də bilməyirəm**
**niyə belə tez öyrəndim unutmağı?**
**Bağışlaya bilməyirəm**
**Öz-özümə**
**bu yadlığı.**
**Dünya yarı dünyaydı**
**mən səni tanıdığım gün.**
**Bu dağından tez qırılan**
**bir yarpaqdın**
**adamların tapdağında**
**yoxa çıxdın.**

Və yaxud:

**Dünən belə deyildim,**
**dünən səadət dolu bir adamdım**
**barlı ağac kimiydim!**
**Qorxdum toxunarlar mənə**
**Bu gün**
**kim qaytara bilər məni dünənə?**

Və yaxud:

**Deyirsən ayrılaq,**
**bəsdir yaşadıq.**
**Ayrılaq,**
**Nə qədər gec deyil hələ.**
**Bəsdir, gözümüzdə həsrət daşıdıq**
**yoldan ötənlərə biz bilə-bilə.**
**... Sevsəm də mən səni ayrılmalıyıq**
**Niyə gizlədirik həsədimizi.**
**Unuda-unuda yaşayırıq biz,**
**Məgər görmürsənmi bir-birimizi.**

Hə, mən Tofiq Abdinlə elə kitab rəfimin önündə bir xeyli söhbət etdim. Şeirlərinin qanadında ona doğru gedib əlini sıxmaq istədim. Əlim boşluqda qaldı. Çünki o, öz şeirlərinin dünyasında, öz sözünün işığında oturmuşdu Tanrı dərgahında. Orda nə isə yazırdı. Deyəsən bu dəfə yazdığını bizə oxumayacaq...

**Əbülfət MƏDƏTOĞLU**